# Uzun illərin yaradıcılıq hesabatı





**Bu günlərdə Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi, "Sabitlik və İnkişaf" İctimai Birliyi və "Xarıbülbül" Ədəbi Məclisinin təşkilatçılığı ilə Ədilə Qocayevanın "Yaşatdım ki, yaşayım..." və "Qələmin işığında" ikicildliyinin təqdimatı keçirilmişdir.**

Tədbirin aparıcısı Mehriban Cəfərova Ə.Qocayevanın mənalı ömür yolundan, fəaliyyətindən danışaraq dedi ki, o, kitabxanaçı ixtisası üzrə təhsil alsa da jurnalistlik peşəsini də paralel olaraq davam etdirmiş, püxtələşmişdir. Hər iki sahədə uğurla çalışan Ədilə Qocayeva bu gərəkli peşələri özündə birləşdirərək bir vəhdət yaratmışdır.

Sonra söz dövrünün ziyalısı, qadın rollarının məşhur ifaçısı aktyor Əhməd Ağdamskinin oğlu, qabaqcıl maarifçi Telman Ağdamskiyə verildi. Natiq belə bir dəyərli kitabların araya-ərsəyə gəlməsi münasibətilə müəllifi təbrik edərək Ağdamskilər nəsli ilə Qocayevlər ailəsi arasında yaranan dostluq münasibətlərindən söz açdı. Ədilə Qocayevanın atası Sayəddin Qocayevin Ağdaş musiqi məktəbinə rəhbərlik etmək üçün bu bölgəyə göndərilən Əhməd Ağdamski ilə birgə fəaliyyətindən danışdı: "Vaxtilə Azərbaycan qadınları hər cür haqsızlıqlarla üzləşmiş, kölə vəziyyətində yaşamışlar. Bu gün qadınlarımızın cəmiyyətdə tutduğu fəal mövqe məni çox sevindirir. Onlar həyatın bütün sahələrində təmsil olunur. Ədilə xanım da onlardan biridir. Qələmindən çıxan yazılar səmimiliyi ilə seçilir".

Əməkdar jurnalist Şəmsiyyə Musaqızı həmkarının yaradıcılıq məziyyətlərindən söz açaraq dedi: "Azərbaycanda nəşr olunan müxtəlif mətbuat səhifələrində onun qələmindən süzülmüş rəngarəng, maraqlı və aktual yazılara tez-tez rast gəlmək olar. Xüsusilə mədəniyyət və incəsənət sahəsindən yazdığı yazılar təbii və ürəyəyatımlıdır. Əsas odur ki, Ədilə xanım hansı sahədən yazırsa-yazsın, fərqi yoxdur, ürəklə, səmimiyyətlə, faktlara əsaslanaraq, özünü hadisələrin mərkəzində hiss edib obyektiv nəticə çıxararaq yazır. Sözün əsl mənasında ürəyinin odunu, hərarətini hər sətirdə hiss etmək olur".

"İki sahil" qəzetinin əməkdaşı Xuraman İsmayılqızı vaxtilə birgə çalışdığı həmkarının səmimiyyətlə, peşəkarcasına yazdığı məqalələrdən, gərgin iş prosesindən söhbət açdı: "Jurnalist peşəsi olduqca çətin və məsuliyyətlidir. Çünki, peşəkar jurnalist hər bir sənət, peşə sahibi haqqında yazmaq istəyərkən həmin sahəni yaxşı öyrənməli, onlara yanaşma tərzi peşələrinə uyğun şəkildə fərqli olmalı, yazıya hansısa bir yenilik gətirməli, oxucuya təzə bir söz deməli, informasiya çatdırmalıdır. Ədilə Qocayeva zəhmətkeş jurnalistdir. Onun bu gün oxuculara təqdim etdiyi ikicildlik Ədilə xanımın həyat yolunun bələdçisidir. Bu yolda ona uğurlar arzulayıram".

Xalq artisti Hacı İsmayılov çoxillik fəaliyyəti dövründə sənət adamları haqqında yazılara daha çox üstünlük verən Ədilə Qocayevaya həmkarları adından təşəkkürünü bildirərək onun böyük zəhmət hesabına ərsəyə gətirdiyi kitabların əhəmiyyətini bir daha vurğuladı: "Kitab" sözü müqəddəsliyi ifadə edir, müqəddəs məfhumdur. Allah-Təalanın bəndələrinə buyurduqları da bizlərə kitab şəklində çatdırılıb. Onun araya-ərsəyə gəlməsi də çətin bir prosesdir, ağır zəhmət tələb edir. Ədilə Qocayevanın "Yaşatdım ki, yaşayım" və "Qələmin işığında!" kitablarında 250-dən artıq sənət adamı haqqında yazı toplanıb. Bu, adi, quru yazılar deyil. O yazılarda həyat var...".

Digər çıxış edənlər də Ədilə Qocayevanın həm kitabxanaçı, həm də jurnalist kimi səmərəli fəaliyyətindən danışıb ona gələcək işlərində uğurlar arzuladılar.

Sonda Ədilə Qocayeva tədbir iştirakçılarına, çıxış edənlərə haqqında deyilən xoş sözlərə görə minnətdarlığını bildirdi.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2022.- 17 may.- S.10.